Yeni dərs ilinin əvvəlində Bakıda - Heydər Əliyev adına Sarayda Azərbaycan müəllimlərinin XIII qurultayı keçiriləcək. Qurultayda ölkədə aparılan təhsil islahatlarının gedişi, təhsilin inkişafı üzrə əldə olunmuş nailiyyətlərdən söz açılacaq, milli təhsil quruculuğu sahəsində qarşıda duran vəzifələr, mövcud problemlər müzakirə olunacaq və müvafiq qərarlar qəbul ediləcək.

Qurultaya hazırlıq işlərinin təşkili və onun yüksək səviyyədə keçirilməsinin təmin edilməsi məqsədilə Təhsil Nazirliyində Təşkilat Komitəsi yaradılıb. Komitəyə qurultayın keçirilməsi üzrə tədbirlər planının hazırlanması ilə bağlı tapşırıq verilib.